*Uşaq ədəbiyyatı xəzinəsindən*



# MİKAYIL RZAQULUZADƏ

*Biblioqrafiya*

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası

*Uşaq ədəbiyyatı xəzinəsindən*

# MİKAYIL RZAQULUZADƏ

(Mikayıl Manaf oğlu Rzaquluzadə)

***Biblioqrafiya***

**Bakı–2018**

**KBT** Я19:Ш+Ш 5(2=Аз)7-4я1
**UOT** 016: 821:512.162

**Tərtibçilər:** **Nazilə Tahirova,** *Əməkdar mədəniyyət işçisi*
**Leyla Qafarova**
**Tünzalə Əzizova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,** *Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Zahid Xəlil,** *filologiya üzrə elmlər doktoru, professor*

**Rəy:** **İradə Rəhmanova,** *filologiya elmləri namizədi, dosent*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,** *Əməkdar mədəniyyət işçisi*

**Mikayıl Rzaquluzadə** (Mikayıl Manaf oğlu Rzaquluzadə) biblioqrafiya /tərt. ed.: N.Tahirova, L.Qafarova, T.Əzizova; ixt. red. və burax. məsul.: Ş.Qəmbərova; red. G. Səfərəliyeva; Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2018.- 240 s.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair Mikayıl Rzaquluzadənin həyat və yaradıcılığına həsr olunmuş bu biblioqrafiyada şairin 1923-2018-ci illərdə dərc edilmiş əsərləri və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 476 84 2

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

# Tərtibçidən

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, şair, tərcüməçi, pedaqoq Mikayıl Manaf oğlu Rzaquluzadə 17 mart 1905-ci ildə Bakı şəhərində anadan olmuşdur. Ədəbi fəaliyyətə 1923-cü ildə “Müəllim” şeiri ilə başlamışdır. İlk məqaləsi isə 1926-cı ildə “Maarif işçisi” jurnalında “Çocuq ədəbiyyatında üsul məsələsi” adı ilə dərc olunmuşdur. Müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq bütün kitablarını (19 adda) uşaq və gənclər üçün nəzərdə tutmuşdur. Bunlar Vətənə, xalqa, təbiətə məhəbbət, dostluq, sülh və əmin-amanlıq ideyalarını tərənnüm və təbliğ edən əsərlərdir.

Mikayıl Rzaquluzadənin anadan olmasının 115 illiyi ərəfəsində F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları yazıçının yaradıcılığını tam halda işıqlandırmaq məqsədilə fundamental biblioqrafik vəsaitin tərtibinə qərar vermişlər.

Ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1923-2018-ci illərdə dərc olunan materialları əhatə edir.

Göstərici dörd hissədən ibarətdir:

I Hissə- Mikayıl Rzaquluzadənin əsərləri;

II Hissə - Mikayıl Raquluzadə haqqında;

II Hissə - Rus dilində;

IV Hissə - Köməkçi göstəricilər.

Göstəricidə həmçinin şairin Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi idarəsində toplanan şəxsi arxiv materialları öz əksini tapmışdır.

Biblioqrafiyada “Mikayıl Rzaquluzadə görkəmli şəxsiyyətlər haqqında”, “Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Mikayıl Rzaquluzadə haqqında” adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı şübhəsizdir.





Vasaitdə materiallar bölmələr üzrə xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə Mikayıl Rzaquluzadənin əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

Biblioqrafik vəsait geniş oxucu kütləsi – tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

Biblioqrafik göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssis və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;

**E-mail:** info@clb.az.

## Görkəmli yazıçı və tərcüməçi haqqında biblioqrafiya

Azərbaycanın mədəniyyət tarixində Mikayıl Rzaquluzadənin xüsusi yeri var. O, həm gözəl şair, yazıçı, həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir.

Mikayıl Rzaquluzadənin həyat və fəaliyyətini əks etdirən bu biblioqrafiya gərgin və ağır zəhmətin məhsuludur. Əməkdar mədəniyyət işçisi Nazilə Tahirova, Leyla Qafarova və Tünzalə Əzizovanın tərtib etdiyi, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərovanın buraxılışına məsul olduğu və Əməkdar mədəniyyət işçisi Gülbəniz Səfərəliyevanın redaktorluğu ilə hazırlanmış "Mikayıl Rzaquluzadə" biblioqrafiyası mədəniyyətimizin qiymətli bir hissəsinin əbədiləşməsinə xidmət göstərir.

Ümumiyyətlə biblioqrafiya informasiya, fakt və hadisələri daha yığcam şəkildə oxucuya çatdıran gözəl bir vasitədir. Müxtəlif yazıçı və alimlərin həyatından bəhs edən biblioqrafik kitabların yaranması ənənəsini yaşadan Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının bu təşəbbüsü də təqdirə layiqdir.

Mikayıl Rzaquluzadə təkcə gözəl şair, nasir, publisist deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan və müxtəlif millətlərə mənsub olan saysız-hesabsız yazıçıların əsərlərini dilimizə çevirən bir söz ustadı kimi şöhrət qazanmışdır. O türk, rus və fars dillərini mükəmməl bilirdi. Həmin dillərdən tərcümə etdiyi ədəbi nümunələr Azərbaycan oxucuları tərəfindən böyük maraqla qarşılanırdı.

Biblioqrafiyanın lakonikliyini təmin etmək məqsədilə müəlliflər bunu bir neçə bölməyə ayırmışdılar. Onlar çalışmışdılar ki,





hər bölməyə daxil edilən materialların heç biri kənarda qalmasın.

"Kitablarda və dərsliklərdə çap olunmuş əsərləri" bölməsində verilən mətn siyahısı göstərir ki, M.Rzaquluzadə ibtidai və orta məktəb dərsliklərində ən çox çap olunan bir yazıçıdır. Biblioqrafiya müəllifləri ağır zəhmətə qatlaşaraq Mikayıl Rzaquluzadənin mətbuatda və məcmuələrdə dərc edilmiş əsərlərini toplamış, ədəbi tənqidi və publisistik məqalələrini qruplaşdırmışlar.

Məncə biblioqrafiyanın ən böyük hissəsi onun "Tərcümələr" bölməsidir. Oxucu bu bölməni nəzərdən keçirdikdə görəcək ki, Mikayıl Rzaquluzadə təkcə uşaq ədəbiyyatı nümunələrini deyil, dünyanın ən nəhəng söz ustalarını – Nizami Gəncəvidən başlayaraq Puşkin, Paustovski, Mayakovski, Lermontov, Heyne, Şoloxov, Qorki, Belinski, Turgenev, Düma, Svift, Şevçenko, Tolstoy, Qoqol, Gertsen, Korneyçuk, Latsis, London, Güntəkin, Skot, Homer kimi qələm sahiblərinin əsərlərini dilimizə tərcümə edərək söz xəzinəmizi zənginləşdirmişdir.

Mən "iynə ilə gor qazmaq" xalq ifadəsini "İynə ilə böyük saray qurmaq" kimi dəyişdirərək onu biblioqrafiya sənətinə aid edərdim. Bu kitab da göstərir ki, belə əsərləri yaratmaq üçün həddindən artıq səbir və kamil bir tədqiqatçı olmaq tələb olunur. Biblioqrafiyanın tərtibi diqqəti xüsusilə cəlb edir. "Həyat və yaradıcılığının əsas tarixləri" bölməsində 1905-ci ildə anadan olduğu göstərilən sənətkarın 2006-cı ilə qədər yaratdığı əsərlərinin geniş əksini görürük. Oxucu bu bölmədə Mikayıl Rzaquluzadənin həyat və fəaliyyətinin ən mühüm hadisələri ilə tanış olur. Biblioqrafiyanın başqa bir bölməsi "Mikayıl Rzaquluzadənin müdrik deyimləri"nə həsr olunmuşdur. Təkcə bu hissəyə daxil olan deyimləri diqqətlə oxuyanda görürük ki, Mikayıl Rzaquluzadə nə qədər müdrik, nə qədər həqiqətpərəst, fakt və hadisələrə nə qədər əda-

lətlə qiymət verən söz adamı olmuşdur. Bu bölmədə həmçinin tərcüməçilik sənətinin sirləri, ayrı-ayrı sənətkarlar haqqında deyimləri əsl ədəbiyyat yaradıcısının fikirləri idi.

Azərbayacan uşaq ədəbiyyatının yaradıcılarının, xüsusilə, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Teymur Elçin kimi sənətkarlara verdiyi qiymət olduqca dəyərlidir. Biblioqrafiyanın maraqlı bölmələrindən biri bu böyük söz adamının əsərlərinin nəşr olunduğu tarixi ardıcıllıqdır. Mikayıl Rzaquluzadənin 1945-ci ildən başlayaraq ömrünün sonuna qədər çap olunmuş kitabları tarixi ardıcıllıqla və səliqə ilə düzülmüşdür. Hər bir kitaba daxil olan əsərlərinin siyahısının verilməsi təqdirəlayiqdir. Bu bölmədə Mikayıl Rzaquluzadənin həm sağlığında, həm də sonra çap olunan kitabları öz yerini tutmuşdur.

Qeyd etmək lazımdır ki, M.Rzaquluzadə Azərbaycan uşaq ədəbiyyatının xarici ölkələr ədəbiyyatı hesabına zənginləşməsinin xüsusi qayğısına qalırdı. Buna görə də dünyanın ən böyük sənətkarlarının – H.X.Andersenin, C.Rodarinin, E.S.Tompsonun, A.Dümanın, A.Bartonun, A.Tolstoyun, C.Sviftin və başqalarının əsərlərini böyük məhəbbətlə tərcümə etmişdir.

Biblioqrafiya 3 hissəyə bölünmüşdür. Onun birinci hissəsində yuxarıda bəhs etdiyimiz materiallar yerləşdirilmişdir. Kitabın ikinci hissəsi Mikayıl Rzaquluzadənin əsərləri və sənəti haqqında yazılan kitablara, məqalə və qeydlərə həsr olunmuşdur. Bu hissədə verilən mətnlər bir daha göstərir ki, yazıçının sənəti ədəbi tənqidin və ədəbiyyat tarixçilərinin nəzərindən qaçmamışdır. Onun haqqında çox qiymətli məqalələr yazılmış və mətbuatda nəşr olunmuşdur. Üçüncü hissədə yazıçının xarici dillərdə nəşr olunmuş əsərləri toplanmışdır. Bu mətnlər göstərir ki, Mikayıl Rzaquluzadə sənətinə həm Rusiyada, həm də Avropanın qabaqcıl ölkələrində həmişə maraq olmuşdur. Biblioqrafiyada həmçinin yazıçının arxivində qorunan əlyazmaları, ona avtoqrafla bağışlanan kitabların adları və müxtəlif sənədlər öz yerini tutmuşdur.





Bibioqrafiya böyük yazıçı, tərcüməçi, maarifçi, ziyalı Mikayıl Rzaquluzadənin həyatını, yaradıcılığını, pedaqoji fəaliyyətini mükəmməl əks etdirən qiymətli bir tədqiqatdır. O, alimlərin, tələbələrin, kitabxana işçilərinin, elmi-pedaqoji tədqiqatçıların yaradıcılıq yoluna işıq saçacaqdır.

**Zahid Xəlil,**
*ADPU-nun Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor*

## Mikayıl Rzaquluzadənin həyat və yaradıcılığının əsas tarixləri

**1905, 17 mart** - Bakıda anadan olmuşdur.

**1912-1913** - İbtidai təhsilini yeni üsullu "Mədrəsəyi-nur" məktəbində və mollaxanada almışdır.
- Yeni üsullu 5 saylı "Rus-müsəlman" məktəbində, həm də xüsusi müəllim yanında hazırlaşıb Bakı ticarət məktəbinə daxil olmuşdur.

**1920-1921** - Azərbaycan hərbiyyə-bəhriyyə komissarlığında şöbələrarası rabitəçi işləmişdir.

**1922-1923** - Birinci Azərbaycan Ali Pedaqoji İnstitutu nəzdində "A.Şaiq adına nümunə məktəbi"nin son sinfində oxuyarkən ekstren imtahan verib Ali Pedaqoji İnstitutun tarix fakültəsinə daxil olmuşdur.
- Ədəbi fəaliyyətə "Abdulla Şaiq" kitabçasında çıxan "Müəllim" (Abdulla Şaiqin 50 illiyi münasibətilə) şeiri ilə başlamışdır.
-Bakı vilayət hərbi komissarlığında "Jurnalist" işləmişdir.

**1925** - "Örnək" adlı kitabçada bir neçə məqaləsi çap olunmuşdur.





- Qubada Müəllimlərin pedaqoji yay hazırlıq kurslarında ana dilinin pedaqogikası və metodikası üzrə mühazirələr oxumuşdur.

**1926-1927** - "Çocuq ədəbiyyatında üsul məsələsi" adlı ilk məqaləsi "Maarif işçisi" jurnalında çap edilmişdir.
- Sabir adına kitabxanada və fəhlə rayonlarının kitabxanalarında kitabxanaçı, Bakı mərkəzi kitabxanasında kollektor müdiri, pedaqoji institut kitabxanasının müdir müavini, müdiri vəzifələrində işləmişdir.

**1927-1928** - Gəncə Pedaqoji Texnikumunda, həm də fəhlə fakültəsində ədəbiyyat və pedaqogika-psixologiya müəllimi işləmişdir.
- Gəncə müəllimlər evində ədəbiyyat dərnəyinin rəhbəri, "Qızıl Gəncə" jurnalı redaksiya heyətinin və Azərbaycan Proletar Yazıçıları İttifaqı Gəncə şöbəsinin büro üzvü seçilmiş və s. ictimai işlərdə fəal iştirak etmişdir.

**1930** - otuzuncu illərdə "Mim-Re", "M.R.", "R.Mikayıl", sonra isə ömrünün axırınadək Mikayıl Rzaquluzadə imzası ilə yazıb-yaratmışdır.

**1931-1934** - Moskvada İkinci Dövlət Universiteti yanında Pedaqoji Psixologiya-Pedologiya Elmi-Tədqiqat institutunun aspiranturasında təhsil almışdır.

| | |
|---|---|
| | - Moskvada təhsil aldığı müddətdə o, SSRİ Xalq Komissarlar Şurası qanun və qərarlar nəşriyyatının Azərbaycan şöbəsində tərcüməçi və Xalq Komissarları Soveti yanında stenoqrafiya kurslarında dil və ədəbiyyat müəllimi vəzifələrində işləmişdir. |
| **1933** | - Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika institutunda uşaq ədəbiyyatı şöbəsində elmi işçi vəzifəsində çalışmışdır. |
| **1934** | - Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmişdir. |
| **1934-1939** | - Azərbaycan Dövlət Nəşriyyatında tərcüməçi, "İnqilab və mədəniyyət" jurnalında məsul katib, Azərbaycan Dövlət Kinostudiyasında, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində baş redaktor vəzifəsində çalışmış, ömrünün sonuna qədər yazıçı-tərcüməçi kimi fəaliyyət göstərmişdir. |
| **1937** | - SSRİ Yazıçılar İttifaqına üzv seçilmişdir. |
| **1945-1949** | - "Qaranquş yuvası", "El gücü", "İstək" kitabları çap olunmuşdur. |
| **1952-1955** | - "Dan söküləndə", "Qu gölü" kitabları nəşr olunmuşdur. |
| **1956** | - "Ovçu Elişlə qoçaq Aytəkinin nağılları" kitabı nəşr olunmuşdur. |





| | |
|---|---|
| **1962-1965** | - "Ölkənin çiçəkləri", "Nəsillərdən-nəsillərə" kitabları nəşr olunmuşdur. |
| **1967** | - "Dəniz nağılı" kitabı çap olunmuşdur. |
| **1968** | - "Azərbaycanın qabaqcıl maarif xadimi" fəxri adına layiq görülmüşdür. |
| **1972** | - "Quş dili bilən Orxan" kitabı çap olunmuşdur. |
| **1976** | - Elm və mədəniyyət sahəsindəki xüsusi xidmətlərinə görə "Əmək veteranı" adı verilmişdır. |
| **1981** | - "İlin yazı-elin sazı" kitabı çap olunmuşdur.<br>- Ədəbiyyat sahəsində xidmətlərinə görə iki medal, üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Çuvaş MSSR Mədəniyyət Nazirliyinin və digər təşkilatların fəxri tərifnamələri ilə təltif edilmişdir. |
| **1984, 10 noyabr** | - Bakıda vəfat etmişdir. |
| **2006** | - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə "Seçilmiş əsərləri" çap olunmuşdur. |

## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Mikayıl Rzaquluzadə haqqında

Qocaman ədib M.Rzaquluzadənin öz müşahidələrindən çıxardığı bu nəticə tamamilə doğrudur ki, uşaqlar müasir elmin ən yeni kəşfləri ilə yaxından maraqlandıqlarına baxmayaraq, nağıllar dünyasının cazibəsindən də ayrıla bilmir, bu texniki tərəqqi zamanında da zümrüd quşunun və Məlikməmmədin sehirli dünyasını sevirlər.

**Bəkir Nəbiyev,**
*akademik*

Mikayıl yeni fikir üçün həmişə yeni və orijinal forma axtaran yazıçıdır. Yeni həyatın təsviri və yeni fikirlər üçün yeni forma, yeni vasitələr lazımdır. Bu müasir sovet ədəbiyyatının tələbidir.

Mikayılın əsərlərində müasir həyat hissi də çox qüvvətlidir. O, nədən və nə vaxt yazmaq zərurətini vaxtında duyur. Uşaq mühitini həssaslıqla müşahidə edir. Məhz buna görədir ki, onun kitabları uşaqlar tərəfindən maraq və həvəslə oxunur.

Mikayıl məhsuldar yazıçıdır. Deyə bilərəm ki, son illərdə uşaqlar üçün ən çox yazan yazıçılardan biri, bəlkə də birincisi Mikayıldır. O, bu sahəyə gənclikdən gəlmişdir. İndi isə çal saçlı qocaman bir yazıçıdır. Yaşına görə çox energiyası var. Bu təsadüfi deyildir. Çünki onun ilham mənbəyi tükənməzdir. Kiçik nəslin böyük işləri, qaynar həyatı ona hər dəfə yeni ilham, yeni qüvvət və yeni həvəs verir.

**Qılman Musayev,**
*Xalq yazıçısı*





M.Rzaquluzadə bir nasir kimi uşaqlara yeni bir söz deməyə, həyatı, hadisələri daha sadə və maraqlı şəkildə oxuculara çatdırmağa çalışan, yaradıcılıq axtarışlarına xüsusi qayğı ilə yanaşan istedadlı yazıçıdır. Uşaqların və gənclərin tərbiyəsi işində onun hekayələrinin əhəmiyyəti böyükdür.

Doğma vətəni balaca uşaqlara sevdirmək M.Rzaquluzadə şeirlərinin əsas ruhunu təşkil edir. Doğrudur, M.Rzaquluzadə nəsrə daha çox meyl göstərsə də, onun şeirlərində uşaq aləmi, əməyə və birliyə maraq, yoldaşlıq, dostluq münasibətləri daha dolğun, təsirli verilmişdir.

**Qara Namazov,**
*professor*

Mikayıl Rzaquluzadənin yaradıcılığı bütövlükdə uşaq və gənclərin təlim və tərbiyəsinə, ən vacibi isə onlara əməyi sevdirməyə xidmət edir. Təbiətin füsunkar gözəlliyini dərk etməyi, ondan zövq almağı, heyvanlar aləminin maraqlı sirlərini uşaq və gənclərə öyrətmək üçün M.Rzaquluzadə xeyli müşahidələr aparmış, bu problemin bədii həllini tapmış və maraqlı əsərlər yazmağa müvəffəq olmuşdur.

M.Rzaquluzadənin əsərlərinin qiymətli cəhətlərindən biri, həm də ən vacibi, dilinin sadəliyi, səlisliyi və rəvanlığıdır. Uşaqların söz ehtiyatının çoxalmasında, lüğət fondunun zənginləşməsində onun hekayələri böyük əhəmiyyət kəsb edir.

**Aydın Hacıyev,**
*filologiya üzrə elmlər doktoru*

M.Rzaquluzadənin "Mənim çiçəyim" şeiri Ümumdünya gənclər festivalı münasibətilə yazılmış və bütün dünya gənclərinin dostluq, qardaşlıq, həmrəylik münasibətini tərənnüm edir.

Şair həmrəy olan dünya gənclərini rəngbərəng ləçəkləri olan

bir çiçəyə bənzədir. Beş qitə gənclərinin rəmzi olan bu rəng-bərəng çiçəkləri böyük dostluğun vəhdəti kimi verilən bir okean birləşdirir.

**Əli Mirzəyev,**
*ədəbiyyatşünas*

M.Rzaquluzadənin uşaq əsərləri folklorla sıx bağlıdır. Belə ki, ədibin bir çox uşaq əsərlərində bilavasitə şifahi xalq ədəbiyyatına müraciət edilir, folklor mövzuları və janrlarından yaradıcılıqla istifadə olunur. Həmin əsərlərdə folklora xas olan xüsusiyyətlər dilin aydınlığı, axıcılığı, şirinliyi, eləcə də xeyirxahlıq, düzlük, mübarizlik, əməksevərlik, qəhrəmanlıq kimi mənəvi keyfiyyətlərin xalq deyim tərzində ifadəsi diqqəti cəlb edir. Bu da öz növbəsində uşağın təfəkkürünün, təxəyyülünün inkişafına gətirib çıxarır, uşaq ədəbiyyatının üslubi imkanlarını genişləndirir.

**Bilal Həsənli,**
*ədəbiyyatşünas*

M.Rzaquluzadə öz hekayə və şeirlərində uşaqları Azərbaycan təbiətinin gözəllikləri, zənginlikləri, çöl heyvanları və quşlarının həyatı ilə tanış edir. M.Rzaquluzadə bu şeirlərində uşaqlara nəcib hisslər aşılayır, quşların həyat tərzi, yaşayışı haqqında maraqlı məlumat verir. Ümumiyyətlə, onun əsərlərində qurub-yaratmaq kimi nəcib arzular geniş təbliğ olunur.

**Camal Əhmədov,**
*ədəbiyyatşünas, alim*

M.Rzaquluzadənin yaradıcılığında təlim-tərbiyə, mənəvi-əxlaq, məktəb və ailə məsələləri əsas rol oynayır. Oxucuya nəcib hisslər aşılamağa çalışan şair, uşaqlara faydalı əməyin mənasını açmağa səy göstərir, gördükləri bu işlərdən zövq almaq istəyində olur.





M.Rzaquluzadə uşaq psixologiyasını dərindən bildiyinə görə təsvir etdiyi hadisələrin təbii təzahürünü yazıçı məharəti ilə əks etdirir. Onun tərənnümündə təbiət olduqca gözəl və canlı görünür. Bununla yanaşı, yazıçının təsvir etdiyi uşaq obrazları təbiət hadisələrini maraqla izləyir, onun xassələrini dərindən öyrənir.

M.Rzaquluzadə xalq nağıllarına xas olan ümumi təsvirçiliyi bəzən çox ustalıqla zənginləşdirir, konkret vəziyyət və anları təsvir etməyə üstünlük verir. Öz təsvirlərində portretlər yaradır, hadisələrin gedişini bir növ əyaniləşdirir.

**Zahid Xəlil,**
*professor*

Mikayıl Rzaquluzadə həyata pedaqoq gözü ilə baxdığında, onun uşaq şeirlərinin, hekayələrinin hamısının tərbiyəvi əhəmiyyəti vardır. Başqa sözlə desək, müəllif hansı mövzuda əsər yazırsa yazsın, hansı süjetdən istifadə edirsə etsin, onun yaradıcılıq nümunələri uşaqları zəhmətsevər, təmizkar, doğruçul olmağa, vətəni dərin məhəbbətlə sevməyə, böyüklərə ehtiram göstərməyə, nəzakətli davranmağa, vaxtın qədrini bilməyə, dostluqda sədaqətə səsləyir.

**Rafiq Yusifoğlu,**
*professor*

M.Rzaquluzadənin yazıçı kimi istedadının gücü və bədii qüdrəti onda idi ki, o qədim epik poetika ilə çağdaş dövrün estetik ideallarını bir-birinə qovuşdurmağı, onların vəhdət nöqtəsini tapmağı bacarmış və müasir ədəbiyyatımızda “Dədə Qorqud” ənənələrinin çox uğurlu başlanğıcını qoya bilmişdi.

**Yeganə İsmayılova,**
*professor*

M.Rzaquluzadənin şeirlərində humanistlik, əxlaqilik, xeyirxahlıq daha qabarıq nəzərə çarpır, süjetli əsərləri ciddi tərbiyəvi nəticələrlə tamamlanır.

**Xanım Mustafayeva,**
*filologiya üzrə fəlsəfə doktoru*

Mikayıl Manaf oğlu Rzaquluzadə çağdaş Azərbaycan ədəbiyyatında şair, nasir, ədəbiyyatşünas, dünya klassikasının kamil tərcuməçisi və nəhayət uşaq ədəbiyyatının yaradıcısı kimi tanınmış, 60 illik ardıcıl ədəbi fəaliyyəti dövründə zəngin bir irs qoyub getmişdir.

M.Rzaquluzadənin yaradıcılıq simasını səciyyələndirərkən bir xülasə kimi deyə bilərəm ki, onun istər uşaqlar, istərsə də yaşlılar üçün yazdığı bütün əsərlərində biz təkcə istedadlı şair qəlbini deyil, həm də həssas, sevən, sevilən bir pedaqoqun qəlb çırpıntılarını görüb hərarətlə səmimiyyətini duyuruq.

**İradə Rəhmanova,**
*filologiya elmləri namizədi, dosent*





## Mikayıl Rzaquluzadə görkəmli şəxsiyyətlər haqqında

***Abdulla Şaiq*** *Azərbaycanda uşaq ədəbiyyatının əsasını qoymuşdur. O, uşaq əsərləri ilə yeni nəsillərə dil açmağı, göz açmağı, həyatı, insanları tanımağı, sevməyi öyrədirdi...*

*Abdulla Şaiq uşaqlıq və gənclik illərində mənim idealım idi və iftixarla deyə bilərəm ki, bir şəxsiyyət olaraq mənim üçün ideal olaraq qalır.*

*Böyük ata və ustadın keçdiyi həyat yolunu, o böyük çaxnaşmalar dövrünü, köhnə çar istibdadı dünyasının yıxılıb, yerində yeni bir dünyanın sosializm və kommunizm dünyasının qurulması dövrünü Abdulla Şaiq kimi nəcib bir insanın gözləri ilə görmək, onun həssas qəlbi ilə duymaq, xüsusən gəncliyimiz üçün çox böyük tərbiyəvi əhəmiyyətə malikdir.*

*Abdulla Şaiqin Azərbaycan uşaq ədəbiyyatı sahəsindəki yaradıcılığını ayrıca xatırlamağı, onun həm ürəkdən sevən bir oxucusu, həm də minnətdar bir şagirdi kimi, şərəfli bir borc bilirəm. Şaiq öz səmimi, gözəl, sözün əsl mənasında yüksək tərbiyəvi-bədii şeir, hekayə və pyesləri ilə çox-çox nəsillərin dərin rəğbət və məhəbbətini qazanmış və hələ də qazanacaq xoşbəxt sənətkarlardandır. Onun əsərlərində tərbiyəvilik, əxlaqilik və bədiilik misilsiz bir müvəffəqiyyətlə üzvi surətdə birləşmişdir. O əsla əxlaq dərsi vermədən, quru nəsihətlər etmədən, ən nəcib insani keyfiyyətləri öz oxucularına aşılamağı bacaran bir tərbiyəçi-yazıçıdır.*

*Xalqımızın ən əziz oğlu* ***Səməd Vurğunun*** *sənətinə və şəxsiyyətinə olan sonsuz məhəbbətinin əsl səbəbi - onun yaradıcılıq istedadından daha üstün fitri bir istedada malik olmasıdır ki, bunun da bircə adı var: El sevgisi!....*

*Xalqımızın sevimli oğlu Səməd Vurğunun həyat və yaradıcılığı haqqında çox-çox əsərlər: dissertasiyalar, məqalə və monoqrafiyalar yazılmış, hələ də çox yazılacaqdır. Bunlar hamısı, əlbəttə, çox qiymətlidir. Amma hər böyük sənətkarın, tam surətini, heç yerdə çap edilməmiş duyğu və düşüncələrini aydın təsəvvür etmək üçün onu ən yaxından tanımış qohum-əqrəba və xüsusən yoldaşlarının, ürək dostlarının müşahidələri olduqca əhəmiyyətlidir.*

*Xalqımızın iftixarı olan böyük sənətkarımızın* ***(Cəfər Cabbarlı)*** *bütün yaradıcılığında, ölkəmizin sinəsindəki əbədi odlar kimi qaynayan bu müqəddəs məhəbbət: insan eşqi, məslək eşqi, azadlıq eşqi, vətən eşqi kimi təzahür etməkdədir: oktayları, aydınları, sevilləri, almazları, yaşarları, elxanları.. ən çətin mübarizələrdən qalib çıxaran da həmin bu qadir məhəbbətdir!*

*Əsərləri yalnız respublikamız daxilində deyil, ümumittifaq ölçüsündə ciddi yaradıcılıq məsələlərinin müzakirəsinə səbəb olan sənətkarlarımızdan, xalq şairimiz* ***Rəsul Rzanın*** *yeni şeirləri də hər cəhətdən, xüsusən bu nöqteyi-nəzərdən də diqqətəlayiqdir.*

*Hər şeydən əvvəl bu şeirlərin bir məziyyəti var ki, onları oxuduqda, yalnız şəxsən zövq almaq, sevinmək, kədərlənmək və ya qəzəblənməklə kifayətlənə bilmirsən. Düşünməli olursan, həm də bu düşüncələrini ifadə etmək, paylaşmaq ehtiyacı duyursan. Bu isə, hər sənət əsəri üçün qibtə ediləcək üstün bir məziyyətdir.*





***Mirvarid Dilbazinin*** *istər xırdaca balalar, istər yaşlılar üçün ən müxtəlif mövzu və janrda yazdığı bütün əsərlərində yalnız istedadlı bir şair qəlbinin deyil, həm də həssas və riqqətli bir ana qəlbinin çırpıntıları duyulur və bu xüsusiyyət onun bütün şeirlərinə ayrı bir hərarət və səmimiyyət verir.*

***Nigar Rəfibəyli*** *qadınlıq mövzusuna həsr edilmiş şeirlərində onların yalnız yüksək arzu və əməllərini ifadə etməklə kifayətlənməyib, tarixdə və müasir həyatda, beynəlxalq sülh və azadlıq mübarizəsində, faşizmə və mürtəce qara qüvvələrə qarşı vuruşan konkret qəhrəman qadın surətlərini böyük bir məhəbbətlə tərənnüm edir.*

*Azərbaycan Elmlər Akademiyasının bir çox tarixi hadisələrə şahid olmuş böyük salonunda Respublikanın elmi ictimaiyyəti* ***Yusif Məmmədəliyevi*** *Sovet ölkəsinin irəlidə gedən bir alimi kimi təbrik edir...*

*Yusifin kimya elmi sahəsindəki böyük nailiyyətləri, bunların mahiyyət və əhəmiyyətini göstərmək, əlbəttə, mütəxəssis alimlərin öhdəsinə düşən şərəfli bir vəzifədir.*

***Teymur Elçin*** *yaz yağışı kimi gurultu-pırıltı ilə gəlib-gedən və ya qış günəşi kimi qalın buludlar ardından soyuq-soyuq gülümsünüb ötən bəzi yazıçılardan tamamilə fərqli olaraq bu vəzifənin həm şərəfini, həm də ciddiyyət və məsuliyyətini dərk edib uşaq ədəbiyyatına gəldiyini əsərlərində isbat etmiş yazıçıdır.*

*Mehdinin* ***(Mehdi Hüseyn)*** *ən gözəl xüsusiyyətlərindən biri bu idi ki, özünü tam mənası ilə haqlı bildiyi, ürəkdən inandığı,*

*prinsipial məsələlərdə əsla güzəştə getmədiyi halda, müqabil tərəfin haqlı olduğunu duyduqda, hətta öz iddiasından azacıq da şübhələndikdə, heç vaxt inadla öz fikrində təkid etməzdi. Onunla Gəncədə bu ilk görüş və bununla başlanan tanışlıq, sonralar uzun muddət davam və inkişaf edən dostluğumuz zamanı onu belə tanımışam.*

***Lermontovun** yaradıcılığında böyük fitri istedad, məzmun dolğunluğu və yüksək bədiilik üzvi surətdə birləşmişdir.*

*Böyük ustad sənətkar **Maksim Qorki** dünya tarixinin yeni bir dövrünün – proletar sosialist inqilabı dövrünün coşğun bir nəğməkarı və bayraqdarıdır, həmişə də belə qalacaqdır.*

***Mayakovskinin** irsi dünya ədəbiyyatında misli az olan ölməz əsərlərdir. Dünyanın bütün xalqlarının tərəqqipərvər sənətkarları onun əsərlərini yalnız tərcümə etməklə kifayətlənmir. Mayakovski ruhunda yüksək məfkurəli, mübariz məzmunlu, bədii keyfiyyətli şeir yaratmaqla, onun ölməz işini davam etdirir, onu yaşadırlar.*





# I HİSSƏ

# ƏSƏRLƏRİ

## Kitablar

### 1945

**1. Ağ dana:** şeir: [məktəb yaşına çatmış uşaqlar üçün] / Mikayıl Rzaquluzadə (R.Mikayıl imzası ilə); red. M.Seyidzadə; rəs. Ə.Səttar.- Bakı: Uşaqgəncnəşr, 1945.- 8 s.

**2. Qaranquş yuvası:** poema: [böyük yaşlı uşaqlar üçün] / Mikayıl Rzaquluzadə (R.Mikayıl imzası ilə); red. A.Əfəndiyev.- Bakı: Uşaqgəncnəşr, 1945.- 46 s.

### 1948

**3. El gücü:** ["Dədə Qorqud" boyları üzrə hekayələr] / Mikayıl Rzaquluzadə; red. M.C.Cəfərov.- Bakı: Uşaqgəncnəşr, 1948.-101 s.

***Kitabın içindəkilər:*** Ana ürəyi-dağ çiçəyi; El gücü; Dəli ozan.

### 1949

**4. İstək:** hekayələr /Mikayıl Rzaquluzadə.- Bakı: Uşaqgəncnəşr, 1949.- 104 s. şəkilli.

***Kitabın içindəkilər:*** Şahin; İstək; Yaralı göyərçin; Qurdqıran; Babəkin andı; Padşah və alim; İvan Susanin.

### 1952

**5. Dan söküləndə:** hekayələr: [orta yaşlı uşaqlar üçün] / Mikayıl Rzaquluzadə; red. K.Məmmədov; rəs. Ə.Zeynalov.- Bakı: Uşaqgəncnəşr, 1952.- 84 s. şəkilli.

***Kitabın içindəkilər:*** Dan söküləndə; İşıqlar yandı; Təzə tüfəngin siftəsi; Boş qorxular; Ehtiyat; Braziliya ovçusu; Səhər şəfəqi.

**1955**

**6. Qu gölü:** hekayələr /Mikayıl Rzaquluzadə; red. Y.Əzimzadə; rəs. Ə.Rzaquluyev.- Bakı: Uşaqgəncnəşr, 1955.- 144 s.

***Kitabın içindəkilər**: Qu gölü:* "İlanlı"nın dərdi; İlk addım; Böyük arzular. *Yaxşı ovçu*: Yoldaş-yoldaşla tən gərək!; İlk imtahan; Düşərgədə. *İki güllə:* Əvvəl yoldaş, sonra yol; Hər parıldayan şey qızıl deyil!; İyidin iyiddən ehtiyatı artıq olar; Yüz gün yaraq, bir gün gərək!: *Adaşlar:* İki "Şəhrizad"; Qanlı əyləncələr; İki tale. *Şahin:* Nənənin nağılları; Qış yuxusu; "Şahin" və Qaranquş; Qoçaq oğul, mərd ana; Üz-üzə, göz-gözə. *Qurdvuran:* Abşeronun nemətləri; Dürüst əlamətlər; İki tüfəng; Hünər və mükafat. *Yaralı göyərçin:* İki sahil; Dördayaqlı və ikiayaqlı nadürüstlər; Sirr; Təzə kəndin adamları; Sirrin açılması.

**7. Sirli saz:** poema: [mövzusu Nizamidən alınmışdır] / Mikayıl Rzaquluzadə; rəs. O.Sadıqzadə.- Bakı: Uşaqgəncnəşr, 1955.- 17 s. şəkilli.

**1956**

**8. Ovçu Elişlə qoçaq Aytəkinin nağılları:** poemalar / Mikayıl Rzaquluzadə; red. O.Sarıvəlli; rəs. D.Kazımov.- Bakı: Uşaqgəncnəşr, 1956.- 100 s. şəkilli.

***Kitabın içindəkilər:*** Arılarla ayılar; Tayqulaq dovşanla acgöz canavar; Boz bülbülün nəğmələri; Ovçu Eliş ovda.

**1962**

**9. Ölkənin çiçəkləri:** şeirlər və poema /Mikayıl Rzaquluzadə; red. İ.Tapdıq; rəs. H.Q.Zeynalov.- Bakı: Uşaqgəncnəşr, 1962.- 178 s.

***Kitabın içindəkilər:*** *Şeirlər:* Ölkəmin çiçəkləri; *Sülh və azadlıq:* Oktyabr günəşi; Ağ göyərçin; Döyüşən sərçələr; İki quş; Yuva davası. *Zəhmət və təbiət:* Ən dadlı meyvə; Mənim planım;





Düymə; Ağ dana; Qar yağır; Evimizdə maşınlar; Saat; Müsahibə; Tozsoran; Telefon; Quşlarla nə işin var!; Çimən sərçələr. *Poemalar:* Qaranquş yuvası; Məktublar; Leyla; Sirli saz; Ovçu Elişlə qoçaq Aytəkinin nağılları.

**1965**

**10. Nəsillərdən nəsillərə:** seçilmiş əsərləri /Mikayıl Rzaquluzadə; red. İ.Tapdıq. - Bakı: Azərnəşr, 1965.- 494 s.

***Kitabın içindəkilər:*** Nəsillərdən nəsillərə; Avtobioqrafiya əvəzinə; *Şeirlər:* Ölkəmin çiçəkləri; Oktyabr günəşi; Ulduz; Güllü-çiçəkli aprel; Ağ göyərçin; "Salam, uşaqlar!"; Bizim yay; Quşlarla nə işin var!; Yuva davası; İki quş; Mənim planım; Ən dadlı meyvə; Qış gəlir; Ağ dana; Qar yağır; Döyüşən sərçələr; Çimən sərçələr; Düymə; Evimizdə maşınlar; Saat; Mübahisə; Tozsoran; Telefon; Aytac və yoldaşları; Bakının axşamları; Pioner dostlarıma; Vətən nəğməsi; Günəş; Dənizdən çıxan günəş; Bəyaz gecələr; Səadət və Zəfər; Bənövşələr açılanda; Haqqın zəfəri; Qoruyun gələcəyi; Mənim çiçəyim; Daha da yüksəklərə!; Uzun və böyük; Kamal və Camal; Adam-alim; Məsləkbaz timsah; Dağ kəlinin heykəli; Tikanlı sözlər; *Poemalar:* Qaranquş yuvası; Leyla; Boz bülbülün nəğmələri; Sədaqət (mənzum pyes); *Nəsillərdən nəsillərə*: İqbalnamədən - Nizami. *Hikmətli sözlər*: "Faust"dan – Y.V.Gete; "Vilhelm Tell"dən - F.Şiller; Qaranlıq - C.Q.Bayron; Prometey; Şair Firdovsi - H.Heyne; Bülbüllər - N.A.Krılov; Pişik və bülbül; Şairə - A.S.Puşkin; "Sən vətən eşqiylə"; "Gecə sakit" - M.Y.Lermontov; Yelkən; Türkün şikayətləri; Şairin ölümünə; Vəsiyyət - T.Q.Şevçenko; Marko əfsanəsi - M.Qorki; Vətən - Namiq Kamal; Şair; Əfsanə- A.İsahakyan; Bakı (iki şeir) - B.Mayakovski; Bəxtiyar (sərbəst təbdil və tərcümə). *Hekayələr:* Xan çinarın bir yarpağı; Naxışlı daş; Təzə şəhər-köhnə şəhər; Ulduzlu gecə; Göyərçin ürəyi; Cinayət və cəza; Qu gölü; Adaşlar; Səhər şəfəqi; Təzə tüfəngin siftəsi; Yaralı göyərçin; Padşah və alim; *Ölkəmin baharı:* "Avrora"nın atəşi; İki dünyanın uşaqları; Ölkəmin baharı; Bakı-qardaş ellər gülşəni;

*Canlı xatirələr:* Ədəbiyyat və tərbiyə; Fırtınalar carçısı - M.Qorki; Şərəfli yaradıcılıq yolu - A.Şaiq; Ellər-nəsillər şairi - Lermontov; Odlu duyğular - C.Cabbarlı; Ayrılarmı könül candan - Səməd Vurğun; Böyük istedad - Y.Məmmədəliyev; Şeirimizin bayraqdarı - Mayakovski; Yaşasın müasir nəğmələr - R.Rza; Yanar ürək -R.Nigar; Ana məhəbbəti - M.Dilbazi.

**1966**

**11. Salam Adil:** sənədli povest /Mikayıl Rzaquluzadə; red. Ə.Qasımov, M.Əfəndiyev.- Bakı: Maarif, 1966.- 76 s. şəkilli. Dünya xalqlarının qəhrəmanları.

**1967**

**12. Dəniz nağılı:** hekayə /Mikayıl Rzaquluzadə; red. G. Həsənzadə.- Bakı: Gənclik, 1967.-16 s.

**13. Hekayələr** /Mikayıl Rzaquluzadə; red. İ.Hümmətov.- Bakı: Maarif, 1967.- 72 s. şəkilli. Mənim ilk kitabım.

***Kitabın içindəkilər:*** *Gözəlliyin keşiyində:* Vurğun baxışlarla; Təbiət aşiqləri; Gizlədilmiş qayıq; Qum üzərində izlər; Şübhəli səslər; Cinayət başında; *Düşərgədə:* Tanışlıq; Gilənşah; Ən maraqlı kitab; Gələcəyi yaradanlar; *İki güllə:* Əvvəl yoldaş, sonra yol; Hər parıldayan şey qızıl deyil; İgidin igiddən ehtiyatı artıq olar; Yüz gün yaraq, bir gün gərək; *Boş qorxular:* Cin- şeytan toyu; Su adamı; Cırtdanlar yığıncağı; Yazın elçiləri.

**1968**

**14. Baharın elçiləri:** hekayə [məktəb yaşına çatmamış uşaqlar üçün] /Mikayıl Rzaquluzadə; red. İ.Tapdıq.- Bakı: Gənclik, 1968.- 14 s. şəkilli.

**1969**

**15. Ürəkdə izlər:** şeirlər /Mikayıl Rzaquluzadə; red. İ.Tapdıq.- Bakı: Gənclik, 1969.- 205 s.





***Kitabın içindəkilər:*** *Lirika:* Ürəkdə izlər; Ürək yanır; İnsan ürəyi; Həkimlə söhbət; Kim?!; Axşam günəşi; Öpüşlər; Bulvarda; İki bulvar; Uşaqlar; Körpələr; İlk addımlar; Xəzri, gəl!..; Minarələr; Kosmosda ilk heykəl (satira); Gözəllik barəsində; Səxavətli xanım; Tovuz və dəniz; Qorucu; Uşaq, oyuncaq, at və həyat; Torağayın nəğməsi; Mərd-namərd; Dozanqurdu və sair həşərat; Aslan ürəyi; Rəssam-snayper. *Balalara:* Qar yağanda; Xəzri-gilavar; Zər yazılı mərmər kitab; Cücə getdi su içə; Qorxunc qorxaq. *Poemalar:* Qan sarayı; Baxışlar; Rus gözəli.

**1972**

**16. Quş dili bilən Orxan:** hekayələr: [məktəb yaşlı uşaqlar üçün] /Mikayıl Rzaquluzadə.- Bakı: Gənclik, 1972.- 126 s.

***Kitabın içindəkilər:*** Qaragöz-Alagöz; Yazın elçiləri; “Tərlan” və “Qaraquş”; Balaca balıqçılar; Sədəf balıqla, qoçaq oğlan; Naxışlı daş; Təzə şəhər-köhnə şəhər; Səlimin arıları; Atlas köynək, tirmə araqçın; Quş dili bilən Orxan; Tilsimli bağ; Birinci qar; Qış bayramı; Yaralı ceyran.

**1973**

**17. Cücə getdi su içə:** şeir [kiçik yaşlı məktəblər üçün] / Mikayıl Rzaquluzadə; red. Ə.Salahzadə; rəs. A.Ələsgərov.- Bakı: Gənclik, 1973.- 16 s. şəkilli.

**1977**

**18. Yaz günəşi:** seçilmiş əsərləri /Mikayıl Rzaquluzadə; red. F.Sahib, T.Cəmilova; rəs. Ə.Məmmədov.- Bakı: Gənclik, 1977.- 364 s.

***Kitabın içindəkilər:*** *Şeirlər:* Xoş gördük; Vətən nəğməsi; Günəş; Yanğı; Bənövşələr açılanda; Ürəkdə izlər; Ürək yanır; İnsan ürəyi; Həkimlə söhbət; Kim?!; Hərəkət; İnsan ömrü; Adam var ki...; Sürünənlər, uçanlar; Bəyaz gecələr; Axşam günəşi; Çağırır; Ana öyüdü; And; Səadət və zəfər; Yadındamı?..; Haqqın zəfəri; Daha da yüksəklərə!; Kosmosda ilk heykəl; Planetdaş;

Bizim günəş; Bulvarda; İki bulvar; Körpələr; İlk addımlar; Xəzri, gəl!; Minarələr; Küsü-barış; Gözlər; Öpüşlər; Almaz; Odlar quşu; İnam; Eşq olsun!; Rəssam-snayper. *Satira:* Kamal və Camal; Uzun və böyük; Adam-alim; Məsləkbaz timsah; Gözəllik barəsində; Tovuz və dəniz; Səxavətli xanım; Uşaq, at və həyat; Qorucu; Dozanqurdu və sair həşərat; Aslan ürəyi; Mərd-namərd; Bədbin-nikbin; Canavarlar; Dağ kəlinin heykəli; Cəlladın ölümü; Torağayın nəğməsi; Tikanlı sözlər. *Poemalar:* Qaranquş yuvası; Leyla; Zər yazılı mərmər kitab; Əl-ələ; Hünər-zəfər bayramı; Naxışlar; Beşbarmaq. *Hekayələr:* Xan çinarın bir yarpağı; İşıqlar yandı; Düşərgədə; Boş qorxular; Gözəlliyin keşiyində; Şahin; Adaşlar; Səhər şəfəqi; Aclar-toxlar, çoxlar-azlar; Babəkin andı; Ana ürəyi-dağ çiçəyi. *Xatirələr:* Sayrışan ulduzlar; Görüşlər.

### 1981

**19. İlin yazı-elin sazı:** şeirlər, poemalar, rəvayətlər, nağıllar / Mikayıl Rzaquluzadə; red. Məmməd Namaz.- Bakı: Gənclik, 1981.- 256 s.

***Kitabın içindəkilər:*** Oxucu dostlarıma. *Şeirlər:* Yaz gələndə; Ölkəmin çiçəkləri; Qoruyaq gələcəyi; Yaz bayramı; Anaların bayramı; Güllü-çiçəkli aprel; Gül-çiçək əkək!; Aytəkinin şeiri; İki quş; Yuva davası; Quşlarla nə işin var!; Ağ göyərçin; Bizim yay; Ən dadlı meyvə; Düymə; Evimizdə maşınlar; Saat; Patefon, radio, televizor; Tozsoran; Telefon; Xəzri-gilavar; Cücə getdi su içə; Birinci dəfə-birinci sinfə; Oktyabr günəşi; Qış gəlir; Yeni il nəğməsi; Qar yağanda; Qar yağır; Ağ dana; Döyüşən sərçələr; Təbiətsevənlər mahnısı; Balaca balıqçıların nəğməsi; Aytac və yoldaşları; Orxan; Uçaq; Pioner dostlarıma; Pioner yoldaş!; Pionerlər diyarı; Ulduz; Tapmaca; Canavarlar; Hərəkət; Gözlər; Almaz; Öpüşlər; İnam. *Poemalar*: Zər yazılı mərmər kitab; Əl-ələ; Bayramlar; Hünər-zəfər bayramı; Bayram sovqatı; Bakının axşamları; Məktəbə gedir Tokay; Payız gedir, qış gəlir; Yaz yuxusu; Qorxunc qorxaq; Sirli saz; "Evrika!" - "Tapdım!"; *Rəvayətlər:* Torağay; Gözəllik; Dozanqurdu; Aslan ürəyi; Tərifnamə; Rəssam və hökmdar; Uzun və böyük; Yuxu dərmanı; Adam-alim;





Qoruqçu; Uşaq və at; Körpələr; Qurbağacıq; Düşüncə; Dostluq; Dirilik suyu. *Nağıllar:* Nağıl; Dəcəl çəpiş; Şirinbulaq. *Mənzum salnamə:* Şərqə mayak.

### 2006

**20. Seçilmiş əsərləri:** /Mikayıl Rzaquluzadə.- Bakı: Şərq-Qərb, 2006.- 311 s.

***Kitabın içindəkilər:*** *Şeirlər:* Bəyaz gecələr; Çağırış; Ana öyüdü; And; Səadət və zəfər; Yadındamı?..; Günəş; Haqqın zəfəri; Daha da yüksəklərə!; Vətən nəğməsi; İlk addımlar; Xəzri, gəl!; Kim?!; Bulvarda; İki bulvar; Rəssam-snayper; Minarələr; Axşam günəşi; Ürəkdə izlər; Ürək yanır; İnsan ürəyi; Həkimlə söhbət; Öpüşlər; Körpələr; Planetdaş; Küsü-barış; Eşq olsun!; Adam var ki...; Hərəkət; Sürünənlər, uçanlar; Almaz; Odlar quşu; Bizim günəş; İnam; Xoş gördük; Yanğı; Bənövşələr açılanda; Gözlər; İnsan ömrü. *Satiralar*: Məsləkbaz timsah; Kamal və Camal; Dağ kəlinin heykəli; Adam-alim; Tovuz və dəniz; Səxavətli xanım; Gözəllik barəsində; Uşaq, at və həyat; Qorucu; Mərd-namərd; Canavarlar; Bədbin-nikbin; Cəlladın ölümü; Tikanlı sözlər. *Rəvayətlər:* Uzun və böyük; Torağayın nəğməsi; Dozanqurdu və sair həşəratlar; Aslan ürəyi; Düşüncə; Tərifnamə; Rəssam və hökmdar; Yuxu dərmanı; Qurbağacıq; Dostluq; Dirilik suyu. *Mənzum nağıllar:* Nağıl; Dəcəl çəpiş; Şirinbulaq. *Poemalar:* Qaranquş yuvası; Leyla; Boz bülbülün nəğmələri; Beşbarmaq; Naxışlar. *Hekayələr:* Yaralı göyərçin; Padşah və alim; Cinayət və cəza; Təzə tüfəngin siftəsi; Qu gölü; Təzə şəhər-köhnə şəhər.

### 2016

**21. El gücü:** ["Dədə Qorqud" boyları üzrə hekayələr] / Mikayıl Rzaquluzadə; red. M.V.Cəfərov; rəs. Q.Xaliqov; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F.Köçərli adına Respublika Uşaq kitabxanası.-Bakı: 2016.- 119 s.

***Kitabın içindəkilər:*** Ana ürəyi-dağ çiçəyi; El gücü; Dəli ozan.

## Kitablarda və dərsliklərdə dərc edilmiş əsərləri

**1946**

**22. Ağ dana; Solmazın atasına məktubu**: şeirlər /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə. Ana dili: İbtidai məktəbin II sinfi üçün.- Bakı: Azərnəşr, 1946.- S.127-130, 303-304.

**1948**

**23. Ağ dana; Böyük Vətən müharibəsindən xatirələr: Solmazın atasına məktubu; Atasından Solmaza məktub:** şeirlər /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə. Ana dili: II sinif üçün qiraət kitabı.- II nəşr.- Bakı: Azərnəşr, 1948.- S.104, 227-228.

**24. Ana ürəyi, dağ çiçəyi:** hekayə /Mikayıl Rzaquluzadə // Rzaquluzadə M. Ədəbi qiraət kitabı: VI sinif.- Bakı: Azərnəşr, 1948.- S.6-17.

**25. Nənənin nağılları; İstək; Qış yuxusu; Şahin:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M. Ana dili: IV sinif.- Bakı: Azərnəşr, 1948.- S.120-123; 125-130;139-142; 262-265.

**1949**

**26. Nənənin nağılları; İstək; Qış yuxusu; Şahin:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M. Ana dili: IV sinif.- Bakı: Azərnəşr, 1949.- S.121-124; 126-131; 139-142; 262-265.

**1950**

**27. Böyük Vətən müharibəsindən xatirələr: Solmazın atasına məktubu; Atasından Solmaza məktub; Ağ dana:** şeirlər /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə. Ana dili: II sinif üçün qiraət kitabı.- IV nəşr.- Bakı: Azərnəşr, 1950.- S.160-161; 179-180.





**28. İstək; Şahin; Nənənin nağılları:** hekayələr /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: Rus orta məktəbinin VII sinfi üçün.- Bakı: Azərnəşr, 1950.- S.82-85, 99-100, 118-120.

**29. Nənənin nağılları; İstək; Qış yuxusu; Şahin:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M. Ana dili: IV sinif.- III nəşr.- Bakı: Azərnəşr, 1950.- S.101-103; 105-110; 121-123; 248-250.

**1953**

**30. İstək; Şahin; Nənənin nağılları:** hekayələr /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: Rus orta məktəbinin VII sinfi üçün.- II nəşr.- Bakı: Azərnəşr, 1953.- S.84-86, 101-104, 120-122.

**1954**

**31. İstək; Şahin:** hekayələr /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: Rus yeddiillik və orta məktəbinin VII sinfi üçün.- III nəşr.- Bakı: Azərnəşr, 1954.- S.67-69, 79-80.

**1955**

**32. İstək:** hekayə /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: Rus yeddiillik və orta məktəbinin VII sinfi üçün.- IV nəşr.- Bakı: Azərnəşr, 1955.- S.67-69.

**1957**

**33. Şahin:** hekayə /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: [Qiraət materialları və qrammatik məlumat]: Rus yeddiillik və orta məktəbinin VII sinfi üçün.- Bakı: Azərnəşr, 1957.- S.50-51.

**1958**

**34. Şahin:** hekayə /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: [Qiraət materialları və qrammatik məlumat]: Rus yeddiillik və orta məktəbinin VII sinfi üçün.-II nəşr .- Bakı: Azərnəşr, 1958.- S.50-51.

**1959**

**35. Adaşlar:** hekayə /Mikayıl Rzaquluzadə //Azərbaycan hekayələri.- Bakı: Uşaqgəncnəşr, 1959.- C.II.- S.211-227.

**36. Şahin:** hekayə /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: [Qiraət materialları və qrammatik məlumat]: Rus yeddiillik və orta məktəbinin VII sinfi üçün.- III nəşr.- Bakı: Azərnəşr, 1959.- S.50-51.

**1960**

**37. Şahin:** hekayə /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: [Qiraət materialları və qrammatik məlumat]: Rus yeddiillik və orta məktəbinin VII sinfi üçün.- IV nəşr.- Bakı: Azərnəşr, 1960.- S.50-51.

**1961**

**38. Evimizdə maşınlar**: şeir /Mikayıl Rzaquluzadə //Mənim kitabım.- Bakı: Uşaqgəncnəşr, 1961.- S.12.

**39. Maşınlar**: şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün.- Bakı: Maarif, 1961.- S.62.

**40. Payız; Yazda**: şeirlər /Mikayıl Rzaquluzadə //Şirvan Y., Cəbrayılbəyli C., Quliyev Ə. Ana dili: İbtidai məktəbin III sinfi üçün.- XI nəşri.- Bakı: Azərb. Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı nəşriyyatı, 1961.- S.30-31, 103.

**41. Şahin:** hekayə /Mikayıl Rzaquluzadə //Abdullayev A. Azərbaycan dili: [Qiraət materialları və qrammatik məlumat]: Rus məktəblərinin VII sinfi üçün.- V nəşr.- Bakı: Azərnəşr, 1961 .- S.50-51.

**1962**

**42. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün .- II nəşr.- Bakı: Maarif, 1962.- S.62.





**43. Payız; Yazda:** şeirlər /Mikayıl Rzaquluzadə //Şirvan Y., Cəbrayılbəyli C., Quliyev Ə. Ana dili: İbtidai məktəbin III sinfi üçün.- XII nəşri.- Bakı: Azərb. Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı nəşriyyatı, 1962.- S.30-31, 103.

**1963**

**44. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- Bakı: Azərnəşr, 1963.- S.29-31; 72; 91-97.

**45. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün .- III nəşr.- Bakı: Maarif, 1963.- S.62.

**1964**

**46. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- II nəşr.- Bakı: Azərnəşr, 1964.- S.29-31; 72; 91-97.

**47. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün .- IV nəşr.- Bakı: Maarif, 1964.- S.62.

**1965**

**48. Abşeron bağlarında:** hekayə /Mikayıl Rzaquluzadə // Salam Günəş!: Azərbaycan yazıçılarının təbiət haqqında şeir və hekayələri.- Bakı: Azərnəşr, 1965.- S.60-62.

**49. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- III nəşr.- Bakı: Azərnəşr, 1965.- S.28-33; 93; 112-118; 130-135.

**50. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün.- V nəşr.- Bakı: Maarif, 1965.- S.59.

## 1966

**51. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə // Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- IV nəşr.- Bakı: Maarif, 1966.- S.28-33; 93; 112-118; 130-135.

**52. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün .-VI nəşr.- Bakı: Maarif, 1966.- S.59.

**53. Payız:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N., Quliyev Ə., Cəbrayılbəyli C. Ana dili: III sinif üçün.- IV nəşr.- Bakı: Maarif, 1966.- S.79.

## 1967

**54. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə // Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- V nəşr.- Bakı: Maarif, 1967.-S.28-33; 93; 112-118; 130-135.

**55. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün.- VII nəşr.- Bakı: Maarif, 1967.- S.59.

## 1968

**56. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- VI nəşr.- Bakı: Maarif, 1968.- S.28-33; 93; 112-118; 130-135.

**57. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün.- VIII nəşr.- Bakı: Maarif, 1968.- S.59.

**58. Payız:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N., Quliyev Ə., Cəbrayılbəyli C. Ana dili; III sinif üçün.- VI nəşr.- Bakı: Maarif, 1968.- S.78.





## 1969

**59. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- VII nəşr.- Bakı: Maarif, 1969.- S.28-33; 93; 112-118; 130-135.

**60. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Qarabağlı Ə., Ağayev Ş., Abdullayev N. Ana dili: İbtidai məktəbin II sinfi üçün.- IX nəşr.- Bakı: Maarif, 1969.- S.59.

**61. Payız:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N., Quliyev Ə., Cəbrayılbəyli C. Ana dili: III sinif üçün.- VII nəşr.- Bakı: Maarif, 1969.- S.78.

## 1970

**62. Ana ürəyi, dağ çiçəyi; Saat; Yoldaş yoldaşla tən gərək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Əhmədov Ç. Ana dili: IV sinif.- VIII nəşr.- Bakı: Maarif, 1970.- S.28-33; 93; 112-118; 130-135.

**63. Kamalın arzusu:** hekayə /Mikayıl Rzaquluzadə // Fərəcov Ə., Həsənov M. Azərbaycan dili: III sinif üçün.- Bakı: Maarif, 1970.- S.102-103.

**64. Payız:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N., Quliyev Ə., Cəbrayılbəyli C. Ana dili: III sinif üçün.- VIII nəşr.- Bakı: Maarif, 1970.- S.78.

## 1971

**65. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı].- IV sinif.- Bakı: Maarif, 1971.- S.38-47; 89-97; 224-228; 229-233.

**66. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Kərimov Y., Ağayev Ş., Abdullayev N. Ana dili: II sinif üçün dərslik.- II nəşr.- Bakı: Maarif, 1971.- S.150.

**67. Payız gəlir:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N. Ana dili: III sinif üçün dərslik.- Bakı: Maarif, 1971.- S.29.

### 1972

**68. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı]: IV sinif.- II nəşr.- Bakı: Maarif, 1972.- S.38-47; 89-97; 224-228; 229-233.

**69. Kamalın arzusu:** hekayə /Mikayıl Rzaquluzadə //Fərəcov Ə., Həsənov M. Azərbaycan dili: III sinif üçün.- Bakı: Maarif, 1972.- S.102-103.

### 1973

**70. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Kərimov Y., Ağayev Ş., Abdullayev N. Ana dili: II sinif üçün dərslik.- IV nəşr.- Bakı: Maarif, 1973.- S.150.

**71. Payız gəlir:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N. Ana dili: III sinif üçün dərslik.- III nəşr.- Bakı: Maarif, 1973.- S.29.

### 1974

**72. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı]: IV sinif.- IV nəşr.- Bakı: Maarif, 1974.- S.38-47; 89-97; 224-228; 229-233.

**73. İlk toqquşma**: hekayə /Mikayıl Rzaquluzadə //Yaşıl yarpaqlar.- Bakı: Gənçlik, 1974.- S.53-66.

**74. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Kərimov Y., Ağayev Ş., Abdullayev N. Ana dili: II sinif üçün dərslik.- V nəşr.- Bakı: Maarif, 1974.- S.150.

**75. Payız gəlir:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N. Ana dili: III sinif üçün dərslik.- IV nəşr.- Bakı: Maarif, 1974.- S.29.

### 1975

**76. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M.,





Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı]: IV sinif.- V nəşr.- Bakı: Maarif, 1975.- S.38-47; 89-97; 224-228; 229-233.

**77. Qu gölü:** hekayə /Mikayıl Rzaquluzadə //Babayev A., Nəbiyev B. Ədəbiyyat: [oxu kitabı]: V sinif.- IV nəşr.- Bakı: Maarif, 1975.- S.295-302.

**78. Payız gəlir:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N. Ana dili: III sinif üçün dərslik.- V nəşr.- Bakı: Maarif, 1975.- S.29.

### 1976

**79. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı]: IV sinif.- VI nəşr.- Bakı: Maarif, 1976.- S.38-47; 89-97; 224-228; 229-233.

**80. İki quş; Saat; Mübahisə; Ulduz; Ağ göyərçin; Ölkəmin çiçəkləri:** şeirlər /Mikayıl Rzaquluzadə //Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası: poeziya /tərt. ed.: Q.Namazov.- Bakı: Gənclik, 1976.- S.102-115.

**81. Maşınlar:** şeir /Mikayıl Rzaquluzadə //Kərimov Y., Ağayev Ş., Abdullayev N. Ana dili: II sinif üçün dərslik.- VI nəşr .- Bakı: Maarif, 1976.- S.150.

**82. Payız gəlir:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N. Ana dili: III sinif üçün dərslik.- VI nəşr.- Bakı: Maarif, 1976.- S.29.

**83. Səxavətli xanım:** şeir /Mikayıl Rzaquluzadə //Sabir poeziya günləri.- II Kitab.- Bakı: Gənclik, 1976.- S.37-38.

**84. Şahin:** hekayə /Mikayıl Rzaquluzadə //Azərbaycan sovet uşaq ədəbiyyatı antologiyası: nəsr /tərt. ed.: Q.Namazov.- Bakı: Gənclik, 1976.- S.172-185.

### 1977

**85. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M.,

Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı]: IV sinif.- VII nəşr.- Bakı: Maarif, 1977.- S.38-47; 89-97; 224-228; 229-233.

**86. Kamalın arzusu:** hekayə /Mikayıl Rzaquluzadə // Əfəndizadə Ə., Rəcəbov Ə. Azərbaycan dili: Rus məktəblərinin IV sinfi üçün dərslik.- V nəşr.- Bakı: Maarif, 1977.- S.38.

**87. Qız-quş:** hekayə /Mikayıl Rzaquluzadə //Məktəb səhnəsi /tərt. ed.: İ.Tapdıq.- Bakı: Gənclik, 1977.- S.20-27.

**88. Ölkəmin çiçəkləri:** şeir /Mikayıl Rzaquluzadə //Mənim kitabım: uşaqlar üçün Lenin, Vətən, Partiya, Oktyabr haqqında şeirlər.- Bakı: Gənclik, 1977.- S.27-28.

**89. Payız gəlir:** şeir /Mikayıl Rzaquluzadə //Şirvan Y., Kazımov N. Ana dili: III sinif üçün dərslik.- VII nəşr.- Bakı: Maarif, 1977.- S.29.

**1978**

**90. Ana ürəyi, dağ çiçəyi; Dəniz nağılı; İstək; Babəkin andı:** hekayələr /Mikayıl Rzaquluzadə //Rzaquluzadə M., Mikayılov Ş. Ədəbiyyat: [oxu kitabı]: IV sinif.- VIII nəşr.- Bakı: Maarif, 1978.- S.38-47; 89-97; 224-228; 229-233.

**91. Kamalın arzusu:** hekayə /Mikayıl Rzaquluzadə // Əfəndizadə Ə., Rəcəbov Ə. Azərbaycan dili: Rus məktəblərinin IV sinfi üçün dərslik.- VI nəşr.- Bakı: Maarif, 1978.- S.38.

